AZƏRBAYCAN 1 MAY 2002.

# TARIN TƏNTƏNƏSİ

Bakı Musiqi Akademiyasında xalq artisti, görkəmli tarzən Ramiz Quliyevin yaradıcılıq gecəsi keçirildi. Öncə ustad sənətkar haqqında dünya musiqiçilərinin söylədiyi fikirlər səsləndirildi. Sonra professor Fərhad Bədəlbəyli Ramiz Quliyevlə birgə dünyanın bir çox ölkələrində konsert proqramları ilə çıxış etdiklərini bildirdi. Ramiz müəllimin Azərbaycan tarını, musiqimizi necə təbliğ etməsindən danışdı. Fərhad müəllim görüşlər içərisində bir məqamı xüsusi vurğuladı. İşğaldan əvvəl, Ağdam şəhərində konsert verdikləri zaman atışma başlayır. Əsgərlər və Ağdamın icra nümayəndələri nə qədər xahiş etsələr ki, "Ramiz müəllim həyatınız təhlükədədir, çalmağı dayandırın" - o, dayanmadan axıradək çalacağını bildirir.

Professor ermənilərin tara, kamana sahib çıxmaq xülyalarına da münasibət bildirərək dedi ki, bizim ustad sənətkarlarımız olduğu üçün bu, heç vaxt mümkün deyil. Sadəcə olaraq onlara şərait yaratmamalıyıq ki, musiqimizi öz adlarına çıxsınlar.

Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin birinci katibi Vasif Adıgözəlov dedi: " Mən Azərbaycanın görkəmli tarzənləri Qurban Pirimovu, Bəhram Mansurovu, Əhsən Dadaşovu, Mirzə Mansuru görmüşəm. Bunların hamısının özünəməxsus dəst-xətti olub. Ramiz Quliyev isə bu məktəbin ən layiqli davamçısı, onu daha da genişləndirənlərdəndir. Azərbaycan bəstəkarlarının əsərlərini təbliğ etməkdə onun əməyi misilsizdir.

"Çahargah" nələr demədi tamaşaçılara? Sanki tamaşaçılar tarın sehrinə düşdülər. Cahangir Cahangirovun şirin melodiyaları bizi nisgilli bir xatırlamadan uzaqlaşdırdı. Zalda canlanma yarandı. Sənətkarı Niyazi adına Dövlət Simfonik Orkestri müşayiət edirdi. Bədii rəhbər və dirijor Yaşar İmanov idi.

Ağzınacan dolu zal alqışlara qərq olmuşdu. Fikrət Əmirovun əsərləri əsasında fraqment Ramiz Əyyuboğlu və Əyyub Ramizoğlu tərəfindən çalınırdı. Bala tarzən ata tarzənin yolunu çox ustalıqla gedirdi. Konsert iki saat davam etdi. Doğrusu, nə tamaşaçılar bu ecazkar musiqidən doyurdu, nə də sevimli tarzənimiz öz çıxışından.

Səhnəyə daşınan gül-çiçək dəstələri sənətkara olan sonsuz sevgidən xəbər verirdi.

**Zəkurə QULİYEVA**